## İnsaniyyətə dair

Vəhşitəbiət olma, gəl insani-kamil ol,
İnsanlığın vəzaifi nə olsa, amil ol.

Gör əndəlibi-baği-təməddün nə söyləyir,
Gül şaxəsi kimi əyil, insanə mail ol.

Yum zahiri dü didəni, aç çeşmi-batini,
Bax aləmi-həqiqətə, ol feyzə nail ol.

Sən saliki-təriqi-həqiqətsən, ey gözüm,
Teyy et, mənazili- rəhi-məqsudə vasil ol.

Kimdə təzahür eyləsə övsafi-mənəvi,
Can riştəsini boynuna sar, çün həmail ol.

Gər mehr riştəsi ilə bir yar zülfinə,
Bənd olmuş olsa qırma, çü möhkəm səlasil ol.

Zahir sifatə malik olan şəxsə olma bənd,
Yəni əsiri-dilbəri-niku xəsail ol.

Şirin dəhanı açma, gözüm, təlx sözlərə,
Tiryakvar dafei-səmmi-həlahil ol.

Mehri-sipehri-mərifət ol mahi-çərx tək,
Nöqsan içində gör özün, bədri-kamil ol.

Etsə qəzali-əqlinə gər həmlə qorgi-nəfs,
Canü dililə gir araya, qoyma, hail ol.

Tiği-cəfavü cövr ilə məzlumlar qanın,
Nahəq axıtma, zalım olan nəfsə qatil ol.

Tirü bəla sənə sarı gər üz tutub gələ,
Keçmə sipehr tək arxaya, anə müqabil ol.

Düşmən ayağı altına düşmə misali-zülf,
Sərdən keçib də başımız üzrə çü kakil ol.

Təslim qıl vücudini ənvai-möhnətə,
Möhnət nə yerdə olsa, həman cayə nazil ol.

Birəhm sarban kimi, ey səbr naqəsi,
Kim bari-möhnət altına səni çəksə, hamil ol.

Dünyamız xurafatı səni damə salmamış,
Amadeyi-vüqufi-vürudi-mənazil ol.

Çox gəzmə kibr ilə, tapar axır əcəl səni,
İstər fəqir, istər əmiri-qəbail ol.

Tul etmə, Müştəri, sözü, əcəl gərək əgər
Versə macal, zümreyi-insanə, daxil ol.

## Elmə dair

Ey olan ari əz ülumü-ədəb,
Urma laf camalü əslü nəsəb.

Elmə peyəstə olgilən talib,
Cəhlə gəl olma bir belə rağib.

Elmdir nur, cəhldir zülmət,
Elm mənavü cəhldir surət.

Elmdir adəmi müzəyyən edən,
Şəxsi aləm ara mübəyyən edən.

Elm bir dürrdür giranmayə,
Dövləti-cavidanə sərmayə.

Elm miftahi-gənci-hikmətdir,
Elm fəttahi-babi-dövlətdir.

Elm bir bağdır pür əz əsmar,
Elm bir rağdır pür əz əzhar.

Elmdir daimi həyatə səbəb,
Gər həyat istəyirsən, eylə tələb.

Elmdir şəxs üçün libasi-şərəf,
Ol libası geyən olurmu tələf?

Elm bir mehrdir dirəxşəndə,
Qəlbi-zərratı edər firuzəndə.

Elm mülki-cahanı fəth qılar,
Qət edər Kuhi-Qafı, səth qılar.

Elm gərçi ərəzdi, cövhərdir,
Sədəfi-sinə içrə gövhərdir.

Nəqdi-can ilə ol xəridarı
Qoyma kasad ola bu  bazarı.

Müxtəsər, ey hərisi-malü mənal,
Mal kəsb etmə, eylə kəsbi-kəmal.



Elmsiz uyma malü dünyayə,
Özünə cəhli qılma sərmayə.

Elmsiz adəm ol xərə bənzər,
Yükü simü köhən ola, ya kim zər.

Öylə kim, şəxs olur ona möhtac,
Yükünü alıban qılar ixrac.

Leyk elm öylə növ heyvanə,
Yetirər anı qürbə-insanə.

Filməsəl kəlb çün müəlləm olur,
Xəlq yanında bəs mükərrəm olur.

## Ədəb barəsində

Ey olan sərvi-bustani-ədəb,
Güli-novxizi-gülsitani-ədəb.

Ədəbi-elmə talib ol ki, tapıb,
Şövkətü şan talibani-ədəb.

Dur ol biədəb olan kəsdən,
Əymə bürci-asimani-ədəb.

Artırar qiymətini gövhər tək,
Kim qılarsa vücudunu kani-ədəb.

Tutiyi-nitqə söylə ərz etsin,
Bu sözü xəlqə bazəban etsin.

Xərdü, bari-biddir, ol kəsdən,
Andə gər olmaya nişani-ədəb.

## Əhli-mərifət ilə oturmaq barəsində

Ey tutan əhli-elmilə ülfət,
Etmə nadanlar ilə ünsiyyət.

Cühəladan həmişə dur ol, dur,
Üdəba məclisində daim otur.

Munisin olmuş olsa gər nadan,
Verər əqlinə yəqin nöqsan.

Varsan əgər şəxsi-aqilü kamil,
Bəzminə qoyma yol tapa cahil.

Bağa  gər daxil olsa zagü zəğən,
Tirəruz olar əndəlibi-çəmən.

Həmçinin bir qəfəsdə tutivü zağ
Olsa tuti edər ölümü sorağ.

Müxtəsər kim gərəkdi yar ola əhl,
Yaramaz çünki əhl ilə naəhl.

## Həqiqi gözəl barəsində

Könül, o dilbəri-sahibcamala ol mail
Ki, ondakı olan ol hüsn olmasın zail.

Bir öylə dilbərə dil ver ki, zinətdi kamal,
Nəinki səfheyi-rudə səvadi-nöqteyi-xal.

O gül camala əsir ol, çü lalə çöhrəsi var,
Riyazi-elmü ədəbdən yeganə bəhrəsi var.

O sərvnazi-rəvanbəxşə olgilən dilbənd
Ki, cuybari-mərifət ara olub pabənd.

Əgərçi sahibi-vəchül-hüsndi müstəhsən,
Kamalı olsa vəli söylənir hezar əhsən.

Nigardan qərəzim surəti-məanidir,
Nigari-surəti-məhz olsa nəqş fanidir.

Sözünə, Müştəriya, hər zaman verəndə xitam,
Gözəl olan bu kəlam ilə eylə xətmi-kəlam.